# 12 dekabr ümummilli liderimiz Heydər Əliyevin anım günüdür




*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

*Qəzet 1921-ci ildən çıxır*

Sayı: 237 (21.138)

*12 dekabr 2014-cü il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik




# Əbədilik zirvəsi

***Böyük şəxsiyyətlər yaşayıb-yaratdıqları, fəaliyyət göstərdikləri dövrdə siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə dəyişərək liderlik zirvəsinə yüksəlir, tarix yaradırlar. Tarix yaratmaq isə hər kəsə nəsib olmur.***

Ümummilli lider Heydər Əliyev müasir Azərbaycanın siyasi tarixini yaradan şəxsiyyətdir. Siyasət olimpinin ən yüksək zirvələrini fəth etmiş görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur. Adı müasir tariximizə qızıl hərflərlə yazılan ulu öndərimizin ömür yolu xalqa xidmət nümunəsidir. "Azərbaycanın bəxti onda gətirib ki, tarixinin ən mürəkkəb və həlledici məqamlarında ona dahi şəxsiyyət Heydər Əliyev rəhbərlik edib". Bu, hər bir azərbaycanlının və dünyanın məşhur siyasətçilərinin yekdil fikridir. Həyatının son dəqiqəsinədək xalqının gələcək taleyi haqqında düşünən ulu öndərimiz müstəqil, dünyada öz sözü və yeri olan qüdrətli Azərbaycan dövlətini yaratmışdır.

Ulu öndər Heydər Əliyev özündən sonra gələcək nəsillər üçün çox zəngin irs qoymuşdur. Bu irs bütöv bir idarəçilik məktəbini, xalqımızın özünütəsdiq, həmrəylik və milli dövlətçilik şüurunu, çağdaş ictimai-siyasi fikrin ən ümdə keyfiyyətlərini özündə ehtiva edir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası ən yeni tariximizdə məhz xalqımızın böyük oğlu Heydər Əliyevə məxsusdur.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü ölkəmizdə ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində möhtəşəm quruculuq dövrü olmuşdur. Müasir müstəqil Azərbaycan dövləti məhz ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin birinci dövründə – 1969-1982-ci illərdə yaradılmış təməl üzərində qurulmuşdur. Ümummilli liderimiz 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində bu barədə deyirdi: ***"Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır... SSRİ dövlətinin dağılması ərəfəsində bir çox mütəxəssislər hansı müttəfiq respublikaların iqtisadiyyatının müstəqillik şəraitində özünü təmin etməyə qadir olduğunu müəyyən etməyə cəhd göstərdilər. Aparılan təhlillər göstərirdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər. Bu respublikalardan biri məhz Azərbaycan idi".***

Sovet rejiminin kifayət qədər güclü olduğu bir dövrdə milli dəyərlərin və milli şüurun bərpasına xidmət edən tədbirlərin görülməsi, Azərbaycan dili və Azərbaycan tarixi ilə bağlı tədqiqat işlərinin genişləndirilməsi, rus dilinin yeganə rəsmi dil olduğu bir şəraitdə Azərbaycanın 1978-ci il Konstitusiyasına "Azərbaycan SSR-də dövlət dili Azərbaycan dilidir" müddəasının salınması xalqımızın böyük oğlunun misilsiz tarixi xidmətləri, Azərbaycanın gələcək müstəqilliyinə hesablanmış uzaqgörən tədbirlər idi. Ötən əsrin 70-80-ci illərində ümummilli liderimizin Azərbaycan naminə həyata keçirdiyi müdrik siyasətə diqqəti çəkən ölkə rəhbəri cənab İlham Əliyev demişdir: ***"SSRİ dönəmində Azərbaycan iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına, milli kadrların yetişdirilməsinə böyük səylər qoyan Heydər Əliyev nə vaxtsa ölkəmizin müstəqil olacağına inanırdı. Təbii ki, o zamanlar bütün bu işlər görülməsəydi, müstəqil dövlət quruculuğu vəzifəsinin həyata keçirilməsi çox ciddi çətinliklərlə qarşılaşardı".***

1982-1987-ci illərdə, SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri olanda da ulu öndərimiz daim Azərbaycan haqqında düşünmüş, ölkəmizin gələcəyi üçün mühüm tədbirlər həyata keçirmişdir. O dövrdə Heydər Əliyev şəxsiyyətinə görə keçmiş Sovetlər Birliyində Azərbaycanla hesablaşır, ölkəmizə qarşı torpaq iddiası irəli sürməyə heç kim cəsarət etmirdi.

Azərbaycanın xilası ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin ağır, çətin dövründə, 1990-cı il iyul ayının 20-də Moskvadan Bakıya qayıdan, lakin burada – vaxtilə qurub-yaratdığı şəhərdə qalmaq, ağır fəlakət anında xalqı ilə bir yerdə olmaq imkanı verilməyən ümummilli liderimiz iki gün sonra, iyulun 22-də doğma Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir.

1990-1993-cü illərdə, ölkəmizin ağır dövründə Naxçıvan Muxtar Respublikasında ulu öndərimizin rəhbərliyi ilə tarixi qərarlar qəbul edilir, muxtar respublikanın erməni təcavüzündən xilas olunması, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görülürdü. Üçrəngli bayrağımızın ilk dəfə olaraq 1990-cı il noyabrın 17-də ulu öndərin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin iclasında qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan addımlar idi.

Azərbaycanın ağır dövründə, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan dahi şəxsiyyət ölkəmizi məhv olmaqdan, müstəqilliyi itirilmək təhlükəsindən qurtarmışdır.

1993-cü ildə ulu öndərimiz Azərbaycanı xaos içərisində qəbul etmişdi. İşıqlı vətəndən heç nə qalmamışdı. 1987-ci ildən 1993-cü ilə qədər Azərbaycana rəhbərlik edənlər ölkəmizə Qarabağ, 20 Yanvar, Xocalı adlı müsibətlər gətirmişdilər. Lakin ümummilli liderimiz Heydər Əliyev ölkə həyatının bütün sahələrindəki böhranı aradan qaldırdı, möhkəm ictimai-siyasi sabitlik yaratdı, Azərbaycanı ötən əsrin 70-ci illərindən başlanan quruculuq xəttinə qaytararaq hərtərəfli inkişaf yoluna çıxardı.

Dahi rəhbərimizin çox qısa müddətdə uzaqgörənliklə yaratdığı mükəmməl idarəetmə sistemi Azərbaycanın bir dövlət olaraq iqtisadi, siyasi inkişafına, dünyanın ən qüdrətli dövlətlərinin strateji tərəfdaşına çevrilməsinə rəvac vermişdir. Ulu öndərimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizi uğurdan-uğura aparmışdır. Bu dövrdə Azərbaycanın əldə etdiyi nailiyyətlərin hər biri dövlətçiliyin fundamental əsaslarını müəyyənləşdirən tarixi hadisələrdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə başlıca qayəsini müstəqillik, Azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Ulu öndərimizin apardığı siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.

Ümummilli liderimizin bütün ömrü mənsub olduğu xalqa təmənnasız xidmətdə keçmişdir. O nəinki müstəqil Azərbaycan dövlətçiliyinin əbədiliyini təmin etmişdir, həm də əsasını qoyduğu dövlətçilik xəttini davam etdirməyə qabil böyük bir idarəçilik məktəbi formalaşdırmışdır. Dahi şəxsiyyət özünün qurub-yaratdığı, şah əsəri olan müstəqil Azərbaycanın taleyini Heydər Əliyev məktəbinin layiqli davamçısı olan cənab İlham Əliyevə əmanət etmişdir. Xalqımız Heydər Əliyev siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlar qazanacağına, Azərbaycanın daha qüdrətli dövlətə çevriləcəyinə ürəkdən inanır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: ***"Nə qədər Azərbaycan var, Heydər Əliyev də olacaqdır. Biz – ulu öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".***

Bu gün böyük dövlət xadimi Heydər Əliyevin işi və əməlləri onun şah əsəri olan müstəqil, qüdrətli Azərbaycanın hər yerində görünür. Heydər Əliyev yolu ilə gedərək gündən-günə inkişaf və tərəqqiyə qovuşan Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında əldə olunan bütün nailiyyətlərdə ümummilli liderimizin fəal yaradıcı gücə malik olan idealları yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir. Bu böyük şəxsiyyətin Azərbaycan naminə gördüyü işlər ölkəmizin milli sərhədlərini aşaraq, bütövlükdə, regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Təsadüfi deyil ki, məşhur dövlət və ictimai xadimlər ulu öndərimizi iyirminci əsr dünya siyasi fikir tarixinin canlı əfsanəsi və siyasət patriarxı adlandırırdılar. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülmüşdür. Onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının ümummilli lideri adını qazanmasıdır".***

Tanrı ulu öndərimiz Heydər Əliyevə tükənməz yaradıcı güc, qeyri-adi istedad vermişdi. O, bütün fəaliyyəti, insanlara münasibəti, uzaqgörənliyi, müdrikliyi, Vətənə bağlılığı ilə böyük bir nümunə idi. Xalqımızın böyük oğlu torpağına, Vətəninə ucalıq gətirmişdi. Həyatından artıq sevdiyi Azərbaycan uğrunda ümummilli liderimiz bütün maneələrə, təzyiqlərə sinə gərdi, ömrünü xalqının, Vətəninin yolunda şam kimi əritdi. Ona görə ki, bir də xalqının başına bəlalar gətirilməsin, Azərbaycan daha da inkişaf etsin, müstəqilliyimiz əbədi olsun. Vətənə sədaqət, xalqa xidmət prinsipi ulu öndərin həyat fəlsəfəsinin qayəsini təşkil edirdi.

İllər, qərinələr ötdükcə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin tarixi xidmətləri, bir insan ömründə yaratdığı möcüzələr daha aydın görünəcəkdir. Zaman keçdikcə ulu öndərimizin böyüklüyünü daha çox hiss edəcəyik. O, Azərbaycanın yalnız bu gününü düşünmürdü, xalqımızın sabahını, dövlətimizin gələcəyini düşünürdü. Mənalı ömrünü öz xalqına həsr etmiş ulu öndərimizin siyasi irsi dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, ümummilli liderimizin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə bundan sonra da faydalanacaqdır.

Müdriklik zirvəsinə qalxmaq hər insana nəsib olmur. İnsanın ən ali keyfiyyəti, şəxsiyyətin əsas ölçü vahidi, mənəvi dəyər etalonu olan müdriklik haqqında düşünərkən dahi mütəfəkkir Esxilin bir fikri yada düşür: "Müdriklik çox şey bilmək deyil, lazım olanı bilməkdir". Bu dərinmənalı fikirlər Azərbaycan xalqının işıqlı, nurlu sabahlara olan inamını özünə qaytaran ümummilli liderimizin ucalığını, onun müdriklik zirvəsini xatırladır. Xoşbəxt gələcəyimiz naminə göstərdiyi misilsiz xidmətlərlə adını Azərbaycan tarixinə əbədi həkk etdirən ümummilli liderimiz xalqımızın qəlbində əbədi yaşayacaqdır.

Xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yaşadır. Ulu öndərimiz Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman doğulub böyüdüyü torpağı, xalqı, milləti üçün əbədi olaraq qalacaqdır. Ulu öndər Heydər Əliyev hər zaman zirvədə dayandı, bu gün də zirvədədir, gələcəkdə də zirvədə olacaqdır!

# Nə qədər ki Azərbaycan var, mən də varam.



*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm.*



### Əbədiyaşar liderin özü haqqında dedikləri

*Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.*

*Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt insan kimi həyatımı başa çatdıracağam.*

*Harada yaşayırsan-yaşa, Vətəndən, ana torpaqdan şirin şey yoxdur. Siz düşünməyin ki, Azərbaycan sizə nə etməlidir? Düşünün ki, siz Azərbaycana nə etməlisiniz. Şərt odur ki, insan milləti, Vətəni, torpağı üçün nə edir. Mən həmişə belə yaşamışam.*

*Mən həmişə xalqa arxalanmışam, xalqa bel bağlamışam. Mənim həyatım həmişə xalqla bir yerdə olub, bu gün də bir yerdədir, sabah da bir yerdə olacaqdır.*

## Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında

*Ümummilli lider Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti*

*(Əvvəli qəzetin ötən sayında)*

**Ulu öndər Heydər ƏLİYEV:** *Azərbaycanın öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməsi üçün imkanlar yaradılıb və bir çox nailiyyətlər əldə olunubdur. Azərbaycan bir dövlət kimi möhkəmlənib. Azərbaycanın Silahlı Qüvvələri, ordusu yaranıb, güclənib, inkişaf edibdir və o, bu gün müstəqil Azərbaycanın milli mənafelərini, torpaqlarını, onun hüdudlarını qorumağa qadir ordudur.*

Müstəqil Azərbaycan dövlətinin qüdrəti, gücü bu təhlükənin də qarşısını aldı. Bütün bunlar xalqımızın öz müstəqil dövlətçiliyinə inamını, müstəqillik uğrunda mübarizə əzmini və qətiyyətini bir az da möhkəmləndirdi. Azərbaycan dövləti özünün möhkəmliyini, etibarlılığını, qanunçuluğu və vətəndaşların təhlükəsizliyini hər şeydən yüksək tutduğunu bütün dünyaya nümayiş etdirdi.

1995-ci ilin ortalarında Azərbaycan dövləti bütün qeyri-qanuni silahlı qüvvələrdən artıq xilas olmuş, tamamilə möhkəmlənmiş, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi. Bu dövrdə müxtəlif siyasi və hərbi qruplaşmaların ilhamçıları və iştirakçıları, məsuliyyətsiz, ambisiyalı siyasi partiya liderləri öz planlarından və istəklərindən əl çəkməyə məcbur oldular. Azərbaycanda hakimiyyətə gəlmək üçün silahlı dəstələrdən istifadə etmək ənənəsinə son qoyuldu. Bundan sonrakı dövrlərdə xaricdəki və ölkə daxilindəki pozucu qüvvələr Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmaq, iqtisadi islahatların həyata keçirilməsinə və ölkəyə xarici kapitalın axınının təmin olunmasına mane olmaq məqsədilə digər təxribat əməllərinə, hətta ölkə başçısına qarşı terror aktlarına da əl atdılar. Həyata keçirilən məqsədyönlü və qəti tədbirlər nəticəsində bütün bu cəhdlərin qarşısı alındı. Respublikamız dinc və sabitlik şəraitində öz müstəqil dövlətini qurmaq və inkişaf etdirmək imkanı qazandı. Müstəqil dövlət quruculuğunun üçüncü dövrü başlandı.

1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür.

Məhz ictimai-siyasi sabitliyin yaranması və Azərbaycanın daxilində olan bütün qanunsuz silahlı dəstələrin ləğv olunması, cinayətkar qrupların cinayətlərinin qarşısının alınması – bunlar hamısı Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılmasına şərait yaratdı. Azərbaycan öz dövlət müstəqilliyini elan edərkən bəyan etmişdi ki, Azərbaycan demokratiya yolu ilə irəliləyəcək, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedəcəkdir. Bunlar elan olunmuşdu, ancaq təəssüf ki, Azərbaycanın daxili vəziyyəti, dediyim kimi, çox gərgin olduğuna görə bunlar söz idi, əməli tədbirlər isə lazımi səviyyədə görülmürdü. Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildə böyük vüsət aldı. Bunun əsasını da Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur. Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla, sürətlə həyata keçirilir.

Azərbaycanın öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməsi üçün imkanlar yaradılıb və bir çox nailiyyətlər əldə olunubdur. Azərbaycan bir dövlət kimi möhkəmlənib. Azərbaycanın Silahlı Qüvvələri, ordusu yaranıb, güclənib, inkişaf edibdir və o, bu gün müstəqil Azərbaycanın milli mənafelərini, torpaqlarını, onun hüdudlarını qorumağa qadir ordudur.

Konstitusiya qəbul olunandan sonra ötən beş il ərzində bizim ali qanunvericilik orqanımız – Milli Məclis tərəfindən 900-dən çox qanun qəbul edilmişdir. Məhz Konstitusiyanın əsasında, qəbul olunmuş qanunların əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirilir. Bu islahatlar bütün sahələrdə aparılır. Onların ilbəil həyata keçirilməsi Azərbaycanın bütün sahələrdə inkişafını təmin edir.

Azərbaycan öz daxili və xarici siyasətini müəyyən edibdir. Dediyim kimi, daxili siyasət Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq və iqtisadi islahatlar aparmaqdan, Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq, hüquqlarının qorunmasını təmin etmək və öz rifah halını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarətdir.

Azərbaycanın xarici siyasəti isə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmaq, inkişaf etdirmək, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Azərbaycanın sülhsevər xarici siyasəti, ilk növbədə, onun dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edir. Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarətdir. Azərbaycan demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğundan onun xarici siyasəti də dünya təcrübəsinin bütün nailiyyətlərini, sivil beynəlxalq normaları özündə əks etdirir.

1991-1992-ci illərdə xarici siyasət sahəsində ölkənin beynəlxalq aləmdə mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş ardıcıl kursun hazırlanıb həyata keçirilməməsi, bəzi dövlət rəhbərlərinin beynəlxalq, regional və dövlətlərarası münasibətlərlə bağlı məsuliyyətsiz bəyanatları Azərbaycanın beynəlxalq nüfuzuna olduqca mənfi təsir göstərirdi. Bu, özünü bəzi qonşu dövlətlərlə münasibətdə xüsusilə büruzə verirdi. Ermənistanla müharibə getdiyi bir şəraitdə yaxın qonşularımızdan Rusiya, İran, Mərkəzi Asiya respublikaları ilə münasibətlər keçmiş iqtidarın məsuliyyətsiz bəyanatları üzündən gərginləşmişdi. İlk növbədə, yaxın xariclə münasibətləri qaydaya salmaq, əlaqələri bərpa etmək lazım gəlirdi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi. Bu quruma daxil olan keçmiş sovet respublikaları ilə birbaşa ikitərəfli əlaqələrin də möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparıldı. 1993-cü ilin sonuna qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə əlaqələrin köklü surətdə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. Müstəqil Dövlətlər Birliyi ölkələri ilə iqtisadi əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. Gürcüstan, Özbəkistan, Ukrayna və Moldova ilə ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması öz müsbət nəticələrini verdi.

1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəfmüqabilidir. Son yeddi ildə iki qardaş dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir.

Azərbaycan qonşu İran dövləti ilə də xalqlarımızın mənafeyinə cavab verən qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq prinsipləri əsasında ikitərəfli normal siyasi, iqtisadi, mədəni münasibətlər yaratmağa müvəffəq olmuşdur. Qərb dövlətlərinin də iştirak etdiyi ikinci neft konsorsiumunda İrana yer ayrılmış, "Şahdəniz" yatağının işlənilməsi üzrə müqavilədə bu ölkəyə pay verilmişdir. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin bütün sahələrini əhatə edən sənədlər imzalanmışdır.

Azərbaycan İslam Konfransı Təşkilatının üzvü olan digər ölkələrlə də son illər ərzində siyasi, iqtisadi, ticarət və mədəni əlaqələrini xeyli inkişaf etdirmişdir. Həmin ölkələrlə İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ikitərəfli əməkdaşlığımız məhsuldar və faydalı olmuşdur.

Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər Azərbaycanın xarici siyasətinin məhək daşını təşkil edir. Azərbaycan ilə həmin ölkələr arasında və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı münasibətlər qurulmuşdur. Bu, ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən, planetin qlobal məsələlərinin həllində təsir gücünə malik olan nüfuzlu dövlətlərin diqqətini Azərbaycana cəlb etmək üçün 1993-cü ilin sonundan başlayaraq aparılmış ardıcıl işin müsbət nəticəsi kimi qiymətləndirilə bilər.

Xəzər dənizinin enerji ehtiyatlarının mənimsənilməsində, neft və qaz ehtiyatlarının hasilatı və nəqlində Amerika neft şirkətlərinin beynəlxalq neft konsorsiumunda geniş iştirakı Azərbaycan-Amerika Birləşmiş Ştatları əlaqələrinin inkişaf etməsinə təkan vermişdir. Amerika-Azərbaycan münasibətləri haqqında iki ölkə prezidentləri tərəfindən imzalanmış birgə bəyanat, müdafiə nazirlikləri arasında müdafiə və hərbi əlaqələr üzrə əməkdaşlıq, investisiyaların təşviqi və qorunması, ticarət və kapital qoyuluşu, banklararası və digər sahələrdə əməkdaşlığı nəzərdə tutan hökumətlərarası sənədlər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli təhlükəsizliyinin təmin olunmasına və sosial-iqtisadi tərəqqisinə xidmət edir. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi haqqında imzalanmış xüsusi sənəd Amerika iş adamlarının ölkəmizdə fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradılmasının hüquqi bazasını təşkil edir.

Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. Son illər ərzində Böyük Britaniya ilə ölkəmizin münasibətləri dinamik şəkildə inkişaf etmişdir. Bu gün Böyük Britaniya beynəlxalq aləmdə Azərbaycanın fəal tərəfdarı kimi çıxış edir. Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli üçün Azərbaycanın göstərdiyi səyləri dəstəkləyir.

Avropanın nüfuzlu ölkələri – Almaniya, Fransa, İtaliya, Belçika, Niderland, Yunanıstan, Polşa, Rumıniya, Bolqarıstan və Skandinaviya ölkələri ilə də respublikamız arasında tam sabit və bərabərhüquqlu əməkdaşlıq münasibətləri yaranmışdır. Bu ölkələrlə imzalanmış 90-dan artıq mühüm sənəd həmin münasibətlərin hüquqi əsasını təşkil edir.

Avropa ölkələri ilə münasibətlərin inkişafında qədim İpək Yolunun bərpasını nəzərdə tutan TRASEKA proqramının həyata keçirilməsinə başlanması mühüm yer tutur. Bu nəhəng nəqliyyat dəhlizinin mərkəzində yerləşən ölkə kimi Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır. Dünyanın ən böyük dövlətlərindən biri və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin Xalq Respublikası, həmçinin nəhəng intellektual potensiala malik Yaponiya bu illər ərzində Azərbaycanın siyasi və iqtisadi tərəfdaşına çevrilmişdir ki, bu da xarici siyasətimizin şəksiz uğurlarıdır. Azərbaycanla İsrail dövləti arasında da siyasi, iqtisadi əlaqələr genişlənməkdədir.

Ötən dövrdə Azərbaycanın beynəlxalq və regional təşkilatlarla da əlaqələri genişlənmiş və möhkəmlənmişdir. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması yolunda aparılan iş öz müsbət nəticələrini verməkdədir.

Hazırda Azərbaycan 137 ölkə ilə diplomatik əlaqə qurmuşdur. Vyana konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında konsulluq münasibətləri yaradılmışdır. Azərbaycanda 63 xarici dövlətin səfirlikləri fəaliyyət göstərir. Bunların 24-ü bilavasitə Bakıda, 39-u isə həmin dövlətlərin Ankara, Moskva, Tehran və Tbilisi şəhərlərindəki səfirliklərində akkreditə olunmuşdur. Öz növbəsində Azərbaycanın 21 xarici ölkədə səfirlik, baş konsulluq və daimi nümayəndəlikləri fəaliyyət göstərir. Azərbaycan mötəbər beynəlxalq təşkilatlarda da təmsil olunmuşdur.

*(Ardı qəzetin növbəti sayında)*

## Tanrının seçdiyi ŞƏXSİYYƏT

Adı insanların qəlbində heykəlləşmiş şəxsiyyətlərin kimliyi soruşulmaz! Onlar neçə yüzildəbir doğulur və əməlləriylə əbədiyyət qazanır, daim xalqın yoluna nur salırlar.

Tanrı yaratdığı insanlara yaradıcılıq imkanı bəxş etmişdir:

Onun qurub-yaratmaq eşqi, yaradıcı gücü tükənməz idi.

Tanrı öz qüdrəti ilə qüdrətləndirdiklərinə qüdrətləndirə bilmək imkanı vermişdir:

Onun qüdrəti bir xalqın qüdrətini özünə qaytardı və onu qüdrətləndirdi.

Tanrı adildir və insanlara adil olmağı buyurmuşdur:

O, öz ədaləti ilə bütün insanları ədalətli olmağa yönəltdi. O, ədalətin dayağı, haqqın carçısı idi.

Tanrı insanlarda inamı onları inandırmaqla yaratmağı lazım bilmişdir:

Onun inamı haqqa idi. O, öz inandığına hamını inandırmağı bacaran müdrik dahi idi.

Tanrı insanlara zəhmət çəkməyi, öz zəhməti ilə yaşamağı və yaşatmağı öyrətmişdir:

O ən böyük zəhmətkeş idi, öz zəhməti ilə insanları zəhmət çəkməyə yönəldirdi. O, zəhmətilə yaşayır və yaşadırdı.

Tanrı bütün yaratdıqlarının ümidgahıdır. İnsanlara dayaq olub, ümidgah olanları özü hifz edər:

Onun müdrik zəkasının və yenilməz iradəsinin qüdrəti Onu bir xalqa ümidgah etmişdi.

Tanrı xoşbəxtliyi insanların əməllərinə məxsus etmişdir. Öz ömrünü insanların xoşbəxtliyinə sərf edənləri xoşbəxt saymışdır:

O, öz ömrünü xalqına həsr etmiş bir xoşbəxt idi.

Tanrı insanlara düzgün yol göstərənləri peyğəmbərlər səviyyəsində tutmuşdur:

O nəinki düzgün yol göstərən, həm də bu yolu salan və xalqını bu yolla aparan idi.

Tanrı insanlara bilik əldə edib öz idrakını işıqlandırmağı buyurmuşdur:

Onun idrakının işığı tək özünə və xalqına deyil, bütün bəşəriyyətə yetəcək qədər işıqlı idi.

Tanrı insanlar arasında barışı və sülhü yaradanı insaniyyət simvolu kimi dəyərləndirmişdir:

O, barış və sülh yaradan insaniyyət simvolu idi.

Tanrı xilaskardır. Xilaskarlığı və xilaskarları sevəndir:

O, xilaskarlıq üçün doğulmuşdu. Bütün ömrünü bu işə sərf etdi. O, bir dəfə xalqını bataqlıqdan çıxarıb yüksəltməklə xilas etdi. İkinci dəfə qayıdışı ilə xalqını parçalanıb məhv olmaq, ölkəsini müstəqilliyini itirmək təhlükəsindən xilas etdi.

O, xalqı ilə yaşadı.

O, xalqını yaşatdı.

Çünki O, HEYDƏR ƏLİYEVDİR.

Hələ sağlığında xalqın qəlbində özünə əbədi abidə ucaldan, millətin ümummilli liderinə çevrilən HEYDƏR ƏLİYEV.

Ulu öndərimiz xalqı durduqca xalqı ilə yaşayacaq. O, Azərbaycanla birlikdə əbədi olacaq!

# Mən isə Azərbaycanda əbədi olacağam.




**Ümummilli lider Heydər ƏLİYEV:** *Azərbaycana bəxş etdiyim töhfələr – zavodlar, buruqlar, binalar, obyektlər, abidələr, yeni qəsəbələr mən həyatda olmayanda da Heydər Əliyevin izləri kimi yaddaşlarda yaşayacaqdır.*

## BAŞ MEYDANDA DÜŞÜNCƏLƏR

Baş Meydanda, Baş Küçədə – lap başda
Başçı kimi dayanmısan vüqarla.
Baxıb qədim Naxçıvana fəxr elə!
Baxıb yeni Naxçıvana vüqarlan!!!

Bura adi torpaq deyil, yurd deyil –
Bu, Sənin şah əsərindir, bilirsən...
Hər küçəsi çiçək açan bu yerə
Baxıb qəlbən sevinirsən, gülürsən.

Sən qorudun bu torpağı, bu eli,
Sən qoymadın kirpiyinə toz qona.
Azərbaycan bir yanaydı Səninçün,
Nuh diyarı Naxçıvansa bir yana.

Bu yurd Səni başına tac bilirdi,
Sən də onu üzük qaşı sanırdın.
Naxçıvanın dərdi Sənin dərdindi –
Hər dərdinə yarayırdın, yanırdın.

Bir vaxt burda, bu meydanda Sən özün
"Qara, qorxunc buluddan" söz açardın.
Öz nurunla o zülməti Sən yardın,
İmkansızı, mümkünsüzü bacardın.

İndi zülmət yarılanda hər səhər,
İki Günəş şəfəq saçır burada:
Biri bizim Baş Meydanda, biri də
Milyon illik öz yerində – səmada.

Bilmək olmur, hansı daha nurludur –
Hər ikisi işığını gur saçır.
Fərq onda ki, göylər şahı sönsə də,
O sönməyir, axşamlar da nur saçır.

Onunçün də şər, dərd-bəla, qəm-kədər,
Kənar qaçır, gen dolanır bu eldən.
Elə bil ki, gizli bir əl, bir qüvvə
Hifz eləyir bu torpağı əzəldən.

İndi adi meydan deyil, park deyil
Sənin bu gün dayandığın bu məkan.
Al Günəşin heykəlitək baş əyir,
Səcdə edir Sənə ellər hər zaman.

Naxçıvanı indi dünya tanıyır –
Ziyarətgah bir deyil ki, çoxdur, çox.
Əshabi-Kəhf, Gəmiqaya, Nuh baba –
Yer vardır ki, bənzəri yox, tayı yox...

İndi baxıb o zirvədən hər səhər,
Köks ötürür, qürurlanır, dalırsan...
Öz ruhunla Sən yenə də bu elin –
Nuhçıxanın qayğısına qalırsan.

Həm qədimdir, həm yenidir bu diyar –
Baş-başadır gələcəklə keçmişi.
Yolsa birdir – irəliyə, zirvəyə –
YOLÇULARIN dayanmaqla yox işi.

**Qafar QƏRİB**



*Kəngərli rayonunda Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı*



*Heydər Əliyev adına tam orta məktəb*






*Heydər Əliyev adına Hərbi Lisey*





*Heydər Əliyev Sarayı*

**ŞƏRQ** *qapısı*
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səyyar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 4020. Sifariş № 1042